# *“ABB-İnvest İnvestisiya Şirkəti” QSC-də sifarişlərin qəbulu və icrası qaydaları*

“ABB-İnvest İnvestisiya Şirkəti” QSC **(bundan sonra - Şirkət)** Müştərilərinə formasından asılı olmayaraq Azərbaycan Respublikasında emissiya edilmiş (bundan sonra – **yerli bazarda**) qiymətli kağızlar, törəmə maliyyə alətləri və xarici ölkələrdə emissiya edilmiş (**xarici bazarda**) qiymətli kağızlar, törəmə maliyyə alətləri vasitəsi ilə qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı Müştəri sifarişlərinin qəbulu və icra edilməsi xidmətini göstərir.

Şirkət qiymətli kağızlar, törəmə maliyyə alətləri vasitəsi ilə qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icrası xidmətini həm yerli bazar həm xarici bazar üzrə həm elektron formada (sifarişlərin bir başa elektron olaraq platformaya daxil edilməsi yolu ilə) sifarişlərin Şirkətə qanunvericiliklə icazə verilən formada təqdim edilməsi yolu ilə) həm də standart formada həyata keçirə bilər.

Şirkət Müştərilərinə **elektron** (sifarişlərin bir başa elektron olaraq platformaya daxil edilməsi yolu ilə) və ya **standart formada** (sifarişlərin Şirkətə qanunvericiliklə icazə verilən formada təqdim edilməsi yolu ilə) olmaqla qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi xidmətini **(bundan sonra – xidmət)** göstərir.

Şirkət tərəfindən Müştərilərinə sifarişlərin qəbulu və icrası xidmətləri göstərilərkən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində müştəri uyğunluğu tədbirlərini tətbiq edərkən aşağıdakılar barəsində müştərilərini məlumatlandırır:

- Peşəkar fəaliyyət çərçivəsində üçüncü şəxslərə hüquqi şəxsləri və ya onların filial və nümayəndəliklərini təsis etmək, hüquqi şəxslərin qanuni təmsilçisi qismində çıxış etmək, hüquqi şəxslər və ya onların filial və nümayəndəlikləri üçün hüquqi ünvan təmin etmək kimi xidmətləri göstərən şəxslər şirkətin xidmət təminatçıları hesab edilir. Xarici ölkədə (ərazidə) təsis edilən (qeydiyyatdan keçən) hüquqi şəxsin kənar idarəçisi qismində

çıxış edən şirkətin xidmət təminatçıları, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Şirkət ilə işgüzar münasibətlər qurarkən, şirkətin xidmət təminatçısı qismində iştirak etdiyini bəyan etməli və bununla əlaqədar zəruri bütün məlumat və sənədləri təqdim etməlidirlər.

- Xarici hüquqi təsisatın idarəçisi qismində çıxış edən şəxslər fəaliyyət istiqamətlərinə uyğun olaraq Şirkət ilə işgüzar münasibətlər qurarkən xarici hüquqi təsisatın idarəçisi olduğunu bəyan etməli və idarəçisi olduğu xarici hüquqi təsisatın əmlak strukturu, təsisçisi, benefisiarı (benefisiarları, benefisiarlar qrupunu), digər idarəçiləri (olduğu təqdirdə), xarici hüquqi təsisat təminatçıları (olduğu təqdirdə) və ya eyni və ya oxşar hüquq və vəzifə daşıyan şəxslər haqqında məlumat və sənədləri və xarici hüquqi təsisatın təsis sənədinin surətini təqdim etməlidirlər.

## *Fiziki şəxslər üzrə yerli bazarda sifarişlərin qəbulu və icrası qaydası*

**1.** Xidmətdən yararlanmaq istəyi olan şəxs Şirkətə müraciət edir.

**2.** Müraciət həm fiziki şəkildə Şirkətin yerləşdiyi ünvana gəlməklə həm də Mobil tətbiq üzərindən edilə bilər.

**3.** Mobil tətbiq üzərindən müraciət edildikdə qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq məsafədən hesab açılışı prosesi həyata keçirilir.

**4.** Şirkət tərəfindən müqavilə bağlanmazdan əvvəl xidmətdən yararlanmaq istəyi olan şəxsdən qanunvericiliklə müəyyən edilmiş və birbaşa qadağan edilməmiş məlumat və sənədlər tələb edilir.

**5.** Məlumat və sənədlər qanunvericiliyə uyğun olaraq yoxlanıldıqdan sonra uyğun olduğu təqdirdə şəxslə Şirkət arasında müqavilə bağlanıla bilər.

**6.** Şirkət müvafiq xidmətin göstərilməsi ilə bağlı inestisiya xidmətindən yararlanmaq istəyən və 3-cü bənddə qeyd edilən investorla müqavilə (*şəxs müqaviləni imzalamaqla Şirkətin rəsmi internet səhifəsində yerləşdirilmiş qüvvədə olan sonuncu tarixli Standart Şərtləri qəbul etmiş hesab edilir)* bağlayır.

**7.** Şirkət Müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə investisiya xidmətinin (əməliyyatının) göstərilməsi zamanı müştərinin aktivlərinin uçotunun aparılması məqsədilə öz daxili uçot sistemində müştəri üçün hesab açır.

**8.** Şirkət müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə investisiya xidmətini (əməliyyatını) fərdi investorun portfelinin idarə edilməsi xidməti (əməliyyatı) istisna olmaqla, **yalnız müştərinin və ya onun səlahiyyətli nümayəndəsinin** *(İnvestisiya hesabı üzrə ticarət əməliyyatlarını aparmaq üçün üçüncü şəxsə sərəncam hüququnun verilməsi barədə ətraflı məlumat Şirkətin rəsmi internet səhifəsində (https://www.abbinvest.az/az/huquqi_senedler) yerləşdirilmiş qüvvədə olan və sonuncu tarixli "Fiziki şəxslərə investisiya xidmətlərinin göstərilməsinə dair" Standart Şərtlərdə (bundan sonra – Standart şərtlər) əks olunmuşdur)* sifarişi əsasında həyata keçirir. Sifarişlər yerli bazar üzrə yerli birjada (hal hazırda Bakı Fonda Birjası) və ya birjadankənar bazarda müvafiq alğı-satqı əqdlərinin bağlanması yolu ilə icra edilir.

**9.** Sifarişin müddəti müqavilənin qüvvədə olma müddətindən artıq olmamalı, müqavilənin qüvvədə olma müddəti bir ildən artıq olduqda, sifariş Müştəri tərəfindən ən azı ildə bir dəfə yenilənməlidir.

**10.** Elektron formada və ya telefon vasitəsilə təqdim edilən sifariş (bu sifarişlər Şirkət tərəfindən mümkünlüyü təmin edildiyi halda verilə bilər) istisna olmaqla, kağız daşıyıcıda sifariş iki nüsxədə tərtib edilir, imzalanır və bir nüsxəsi Şirkətin ixtisas şəhadətnaməsinə malik olan əməkdaşının sifarişi qəbul etməsi barədə yazılı qeydi və imzası ilə müştəriyə təqdim edilir. Müştərini səlahiyyətli nümayəndəsi təmsil etdikdə, sifarişdə həmin şəxsə verilmiş etibarnamənin nömrəsi, verilmə, qüvvədə olma tarixləri və etibar edilmiş hərəkətlər göstərilir.

**11.** Müştəri qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə fond birjasında aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə Şirkətə aşağıdakı sifarişləri verə bilər:

- ***rəqabətli sifariş*** - müştərinin təyin etdiyi qiymətdən aşağı və ya yuxarı olmamaq şərtilə qiymətli kağızları və ya törəmə maliyyə alətlərini sifarişdə göstərilən miqdarda almaq və ya satmaq (rəqabətli sifarişin icra şərtləri fond birjasının daxili qaydalarına uyğun olaraq müəyyən edilir);
- ***qeyri-rəqabətli sifariş*** - qiymətli kağızları və ya törəmə maliyyə alətlərini ən əlverişli qiymət ilə sifarişdə göstərilən miqdarda almaq və ya satmaq.

**12.** Formasından asılı olmayaraq yerli bazarda Müştəri tərəfindən təqdim edilmiş sifariş qanunvericiliyə uyğun olaraq Müştəri tərəfindən tərtib edilməli və təqdim edilməlidir.

**13.** Müştəri Sifariş formasını nümunəsini Şirkətdən əldə edə bilər. Müştəri tərəfindən belə bir müraciət olmadıqda normativ aktlarla sifariş üzrə müəyyən edilmiş minimum tələblərin Müştəri tərəfindən bilindiyi kimi qəbul edilir və sifarişin düzgün tərtib edilməməsi səbəbindən Müştəriyə dəyən ziyana görə Şirkət məsuliyyət daşımır.

**14.** Müştəri sifarişində qüvvədə olan normativ aktlara əsasən ən azı aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- *şirkətin tam adı;*
- *müştərinin eyniləşdirilmə məlumatları (fiziki şəxs olduqda - adı, soyadı, atasının adı, fərdi identifikasiya nömrəsi (bu olmadıqda şəxsiyyəti təsdiq edən sənədin növü və nömrəsi), hüquqi şəxs olduqda - hüquqi şəxsin tam adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);*
- *müştərinin depo hesabının nömrəsi;*
- *sifarişin qüvvədə olma müddəti;*
- *qiymətli kağız və ya törəmə maliyyə alətinin növü, forması və dövlət qeydiyyat nömrəsi;*
- *emitentin adı;*
- *sifarişin istiqaməti (alış və ya satış);*
- *qiymətli kağız və ya törəmə maliyyə alətinin sayı;*
- *sifarişin növü (rəqabətli və ya qeyri-rəqabətli);*
- *qiymətli kağızın nominal dəyəri və bazar qiyməti, törəmə maliyyə alətinin bazar qiyməti;*
- *sifarişlərin icra olunması yeri (fond birjası və ya birjadankənar);*
- *valyuta mübadiləsinin məzənnəsi və ya məzənnə dəhlizi (əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı sifarişlərdə).*

**15.** Şirkət müştəri sifarişini qiymətli kağız və ya törəmə maliyyə alətinin qiyməti və sifarişin icra olunması ilə bağlı xərclər də daxil olmaqla ümumi xərclər baxımından Müştəri üçün ***ən yaxşı qiymət prinsipi əsasında*** icra edir. Şirkət sifarişlərin xüsusiyyətləri və üstünlük təşkil edən bazar şəraiti istisna olmaqla, müştərilərin

sifarişlərini onların təqdimolunma ardıcıllığı ilə icra edir. Şirkət müştərilərin sifarişlərini icra edərkən hər hansı çətinlik yarandıqda, bu barədə onlara məlumat verir. Şirkət müştəri sifarişlərinin uçotunu aparır.

**16.** Müştəri sifariş verdikdə onun hesab üzrə qalıq məlumatları yoxlanılır. Müştəri hesabındakı qalığın hesablanmasında Müştərinin verdiyi cari sifarişlər üzrə öhdəlikləri və hər hansı əməliyyatının təminatı məqsədilə hesabında dondurulmuş vəsaitlər nəzərə alınmır.

**17.** Müştəri sifarişlərinin icrası bazarda müvafiq əks sifarişlərin mövcudluğu və bu sifarişlər üzrə qiymətdən asılıdır. Belə ki, Müştəri tərəfindən sifarişin verilməsi heç bir halda əqdin baş tutması üçün müstəsna şərt hesab edilmir.

**18.** Müştəri tərəfindən sifarişin təqdim edilməsi, bu sifarişdə qeyd edilmiş və ya elektron proqram təminatları vasitəsi ilə Müştəriyə təqdim edilmiş bütün parametrləri, o cümlədən, qiymət, predmet (qiymətli kağız, törəmə maliyyə aləti və ya hər hansı aktiv), ödənişlər üzrə bütün ticarət şərtlərini qəbul etməsi kimi qiymətləndirilir.

**19.** Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə bütün növ ticarət əməliyyatları Müştəri sifarişinə uyğun olaraq Şirkət tərəfindən Müştəri adına və hesabına həyata keçirilir və bu əməliyyatlar nəticəsində yaranacaq bütün mənfəət və zərərlər Müştərinin hesabına aid edilir.

**20.** Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə Müştəri tərəfindən verilən sifariş qərarları ilə bağlı bütün məsuliyyət Müştəriyə aiddir. İnvestisiya riski (qiymət dəyişməsi nəticəsində mümkün itki və s.) Müştərinin riskidir.

**21.** Müştəriyə sifarişin icrası və ya ondan imtina edilməsi barədə müvafiq olaraq hesabat və ya məlumatı sifarişin Şirkət tərəfindən qəbul və ya imtina edilməsindən sonrakı 1 (bir) iş günündən gec olmayaraq təqdim edilir. Müştəri sifarişi elektron proqram təminatı vasitəsilə təqdim etdikdə hesabat və ya məlumat bilavasitə Müştəri tərəfindən elektron proqram təminatı vasitəsilə əldə edilir.

**22.** Müştərilərin sifarişləri icra edildikdən sonra Şirkət tərəfindən portfelin idarə edilməsi xidmətinin göstərilməsi halları istisna olmaqla, müştərinin sifarişinin icrasından sonra növbəti iş günü və ya sifarişin icrasının təsdiqi haqqında məlumatı üçüncü şəxsdən aldığı gündən sonra növbəti iş günündən gec olmayaraq, sifarişin icrası barədə hesabatı

müştəriyə təqdim edilir. Elektron proqram təminatı üzrə sifarişlərin icrası barədə hesabat Müştəri tərəfindən həmin proqram təminatı vasitəsilə əldə edilə bilər.

**23.** Müştərinin sifarişi bir neçə hissəyə bölünərək icra olunduqda, sifarişin icrası barədə hesabatda həmin sifarişin hər bir hissəsinin məbləği ayrı göstərilir və ya hər hissəyə düşən orta məbləğ göstərilir. Şirkət hər hissəyə düşən orta qiyməti göstərdikdə, müştərinin sorğusu əsasında sifarişin icra olunan hər hissəsinin məbləği barədə həmin müştəriyə məlumat verir.

**24.** Müştəri Şirkətə təqdim etdiyi sifarişə dəyişiklik etməklə yalnız icra edilməmiş sifarişi tam və ya qismən ləğv edə bilər. Bu halda Şirkət sifarişin icra edilməmiş hissədə ləğvini mümkün ən yaxşı səyləri ilə həyata keçirir. Lakin, bazar şərtləri davamlı olaraq dəyişdiyi üçün, sorğunun tam olaraq yerinə yetirilməsi mümkün olmaya bilər. Sifariş mobil tətbiq vasitəsilə təqdim edildikdə dəyişiklik Müştəri tərəfindən bilavasitə mobil tətbiqdə icra edilir.

**25.** Müştəri sifarişi aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur və icrası dayandırılır:

- *müştəri tərəfindən ləğv edildikdə;*
- *sifarişdə göstərilmiş icra müddəti başa çatdıqda;*
- *sifarişdə olan mexaniki səhvlər (qiymət, miqdar səhvi, simvol səhvi və s.) nəticəsində sifarişin icrası mümkün olmadıqda.*

**26.** Məcburi hüquqi qüvvəyə malik məhkəmə qərarı qəbul edildikdə və digər prosessual məcburiyyət tədbirləri tətbiq olunduqda İnvestisiya Şirkəti Müştərinin sifarişinin icrasını dayandırır və investisiya xidmətlərinin göstərilməsindən imtina edir.

**27.** Müştəri sifarişin icrası üçün tələb edilən məbləği, qiymətli kağızı, maliyyə aktivini və ya müvafiq təminat həcmini (müştəri ilə təminat haqqında əlavə razlaşma olduqda) Şirkətin hesabına köçürmədikdə Şirkət Müştərinin sifarişinin icrasını dayandıra və investisiya xidmətlərinin göstərilməsindən imtina edə bilər.

**28.** Şirkət Müştəri tərəfindən təqdim olunmuş sənədlərdə müştəri tərəfindən təqdim edilmiş pul vəsaitinin və əqdlərin mənbəyinin qeyri-qanuni xarakter daşıdığına dəlalət edən faktlar və ya şübhəli hallar aşkar etdikdə, Müştəri bu pul vəsaiti və əqdlərin mənbəyinin qanuni olmasını təsdiq edənə qədər, Müştərinin sifarişinin icrasını dayandıra və ona xidmətlərin göstərilməsindən imtina edə bilər.

**29.** Şirkət Müştəri tərəfindən verilmiş sifarişin ləğv edilməsi və ya sifarişin icra edilməmiş hissəsinin tam və ya qismən ləğv edilməsi barədə 1 (bir) iş günündən gec olmayaraq (Qanunvericiliklə müəyyən edilmiş tələblərin icrası məlumatlandırma müddətinin uzanmasına səbəb olduğu hallar istisna olmaqla) Müştərinin yazılı və ya elektron formada məlumatlandırılmasını təmin edir;

**30.** Müştəri verdiyi sifarişlər və apardığı əməliyyatlar, eləcə də aktivləri və öhdəlikləri barədə Şirkətdən məlumat ala bilər.

**31.** Müştəri sifarişinin icra olunması ilə bağlı xərclərə aşağıdakılar daxil edilir:

- *sifarişlərin icra olunması yeri üzrə ödənişlər;*
- *kliring haqları;*
- *sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödənişlər.*

**32.** Müştərinin qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə sifarişinin icra olunması üçün vəsaitin köçürülməsində yaranan bank komissiyaları sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödəniş olaraq qəbul edilir və Müştəri tərəfindən qarşılanır. Bu səbəbdən Müştəri tərəfindən bank əməliyyatları həyata keçirilərkən seçilmiş bank komissiyaları Müştəri tərəfindən öncədən öyrənilməli və sifariş təqdim edən zaman Müştəri tərəfindən nəzərə alınmalıdır.

**33.** Müştəri, əgər emissiya prospektində və ya emissiya haqqında qərarda ayrı qayda nəzərdə tutulmayıbsa abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra onların geri çağırılmasını tələb edə bilməz. ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 10.6-cı maddəsində nəzərdə tutulan hal istisna olmaqla).

**34.** Abunə yazılışı üçün sifariş(ləri) imzalamış Müştəri tərəfindən müvafiq Müqaviləyə xitam verilməsi onun tərəfindən abunə yazılışı üçün verilmiş sifariş(lər)in ləğvinə səbəb olmur. Qeyd edilən halda Müştərinin abunə yazılışı sifarişi Şirkət tərəfindən icra edilir (əgər icrası mümkündürsə) və Abunə yazılışı sifarişinə uyğun olaraq qiymətli kağızlar Müştərinin depo hesabına köçürülür. Bundan sonra Müştəri Şirkətə qarşı Standart Şərtlər üzrə Müştəri üçün müəyyən edilmiş hüquqlardan istifadə edə bilməz və Şirkət qarşısında hər hansı öhdəliyin icra edilməsi ilə bağlı tələb irəli sürə bilməz.

**35.** Xidmət haqqı, sifarişin icra olunması ilə bağlı xərclər, mümkün cərimələr, o cümlədən Müştərinin əməliyyatları (sifarişlər və əqdlər) üzrə öhdəlikləri istisna olmaqla,

Müştəri tərəfindən Şirkətə köçürülmüş və Müştərinin xeyrinə müvafiq sifarişin icrası zamanı əldə olunmuş bütün vəsaitlər Müştərinin mülkiyyəti hesab olunur.

**36.** Xidmət üzrə Şirkətə ödənilməli olan xidmət haqqı Şirkətin tarif cədvəlinə uyğun olaraq müəyyən edilir və xidmət haqqı və sifarişin icra olunması ilə bağlı xərclər Müştəri tərəfindən Şirkətin ona təqdim etdiyi ödəniş sənədləri (hesab-faktura və s.) əsasında ödəniş sənədlərinin Müştəriyə təqdim edildiyi gündən 5 (beş) iş günü müddətində Şirkətin bank hesabına köçürülür və ya Şirkət tərəfindən Müştərinin hesabından akseptsiz qaydada silinir.

**37.** Xidmət üzrə digər şərtlər Müştəri ilə bağlanmılmış müqavilə və onun ayrılmaz tərkib hissəsi olan Şirkətin rəsmi internet səhifəsində yerləşdirilmiş Standart Şərtlərlə, habelə qanunvericiliklə müəyyən edilir.

## *Fiziki şəxslər üzrə xarici bazarda sifarişlərin qəbulu və icrası qaydası*

**1.** Müştərinin sifarişi Azərbaycan Respublikası hüdudlarından kənarda (xarici bazarlarda) ticarət olunan qiymətli kağızlar, törəmə maliyyə alətləri və ya digər aktivlər ilə bağlı olduqda, Şirkət Müştərinin sifarişini xarici kontragent ilə bağladığı müqavilə əsasında icra edir. Bu zaman Müştərinin sifariş yerləşdirməsi, xarici kontragentin təqdim etdiyi şərtlərlə razılıq ifadəsinə barabər tutulur və Müştəri mövcud kontragent risklərini qəbul etmiş sayılır. Xarici bazar üzrə investisiya bazarlarının müxtəlifliyi və çoxluğu səbəbindən Müştəri qiymətli kağız və ya törəmə maliyyə alətləri üzrə sifariş verən zaman bu aktivlərin emissiyası üzrə şərtlərlə öncədən tanış olmalı, emissiya edildiyi ölkənin fond birjalarının və birjadan kənar əməliyyatların qaydaları ilə tanış olmalı və bilməlidir. Xarici bazar üzrə sifarişlər xarici birjalarda (mümkün olduğu hallarda birjadankənar da icra edilə bilir) icra edilir. Müştəri xarici bazar əməliyyatlarının aparılması zamanı xarici kontagentin müəyyən etdiyi şərtlər daxilində əməliyyatlar aparılmalı və həmin şərtlərə əməl edilməlidir. Xarici bazar əməliyyatlarının aparılması məqsədilə xarici kontragent tərəfindən təqdim edilən müştəri tərəfindən qəbul edilməli, təsdiq edilməli və ya imzalanmalı olan sənədlər xarici dildə ola bilər. Bu halda Müştəri qeyd edilən sənədlərin məzmununun izah edilməsi üçün Şirkətə müraciət edə bilər.

Müştəri tərəfindən bu kimi hallarda Şirkətə müraciət edilməməsi və sözügedən sənədlərin qəbul edilməsindən, təsdiq edilməsindən və ya imzalanmasından sonra müştəri tərəfindən ilk sifarişin verilməsi müştəri tərəfindən həmin sənədlərin və şərtlərin məzmununun başa düşülməsi və həmin şərtlərin müştəri tərəfindən qəbul edilməsi kimi qiymətləndirilir və bununla bağlı yarana biləcək risklər və zərərlə bağlı Şirkət hər hansı məsuliyyət daşımır.

**2.** Formasından asılı olmayaraq xarici bazarda Müştəri tərəfindən təqdim edilmiş sifariş ticarət olunduğu ölkənin nəzarət orqanının, ticarət olunduğu ölkədə fəaliyyət göstərən fond Birjalarının, birjadan kənar əqdlər üzrə sifariş isə icrasını həyata keçirən üçüncü tərəflərin qaydalarına uyğun olaraq Müştəri tərəfindən tərtib edilməli və təqdim edilməlidir.

**3.** Müştəri onun sifarişinin icrası ilə əlaqədar İnvestisiya Şirkətinin çəkdiyi aşağıdakı xərcləri İnvestisiya Şirkətinə ödəyir:

- *Sifarişlərin icra olunması yeri üzrə ödənişlər;*
- *Kliring haqları;*
- *Sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödənişlər.*

**4.** Azərbaycan Respublikasının qanunvericiliyinə və Müştəri ilə bağlanılmış investisiya xidmətlərinin göstərilməsi üzrə Müqavilənin şərtlərinə uyğun olaraq, xarici bazarlarda sifarişlərin icrası ilə bağlı Müştəriyə müvafiq hesabatlılıq təmin edilir.

**5.** Xidmət üzrə digər şərtlər Müştəri ilə bağlanmılmış müqavilə və onun ayrılmaz tərkib hissəsi olan Şirkətin rəsmi internet səhifəsində yerləşdirilmiş Standart Şərtlərlə, habelə qanunvericiliklə müəyyən edilir.

## *Hüquqi şəxslər üzrə sifarişlərin qəbulu və icrası qaydası*

**1.** Müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə investisiya xidmətinin (əməliyyatının) göstərilməsi zamanı Şirkət müştərinin aktivlərinin uçotunun aparılması məqsədilə öz daxili uçot sistemində müştəri üçün hesab açır.

**2.** Müştəri qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə fond birjasında aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə Şirkətə aşağıdakı sifarişləri verə bilər:

- ***rəqabətli sifariş*** - müştərinin təyin etdiyi qiymətdən aşağı və ya yuxarı olmamaq şərtilə qiymətli kağızları və ya törəmə maliyyə alətlərini sifarişdə göstərilən miqdarda almaq və ya satmaq (rəqabətli sifarişin icra şərtləri fond birjasının daxili qaydalarına uyğun olaraq müəyyən edilir);
- ***qeyri-rəqabətli sifariş*** - qiymətli kağızları və ya törəmə maliyyə alətlərini ən əlverişli qiymət ilə sifarişdə göstərilən miqdarda almaq və ya satmaq.

**3.** Şirkət müştəri sifarişlərinin qəbulu və icra edilməsi üzrə investisiya xidmətini (əməliyyatını) fərdi investorun portfelinin idarə edilməsi xidməti (əməliyyatı) istisna olmaqla, yalnız müştərinin və ya onun səlahiyyətli nümayəndəsinin sifarişi əsasında həyata keçirir. Sifarişin müddəti müqavilənin qüvvədə olma müddətindən artıq olmamalı, müqavilənin qüvvədə olma müddəti bir ildən artıq olduqda, sifariş müştəri tərəfindən ən azı ildə bir dəfə yenilənməlidir.

**4.** Elektron formada və ya telefon vasitəsilə təqdim edilən (bu sifarişlər Şirkət tərəfindən mümkünlüyü təmin edildiyi halda verilə bilər) istisna olmaqla, sifariş iki nüsxədə tərtib edilir, imzalanır və bir nüsxəsi Şirkətin ixtisas şəhadətnaməsinə malik olan əməkdaşının sifarişi qəbul etməsi barədə yazılı qeydi və imzası ilə müştəriyə təqdim edilir. Müştərini səlahiyyətli nümayəndəsi təmsil etdikdə, sifarişdə həmin şəxsə verilmiş etibarnamənin nömrəsi, verilmə, qüvvədə olma tarixləri və etibar edilmiş hərəkətlər göstərilir.

**5.** Müştəri sifarişində qüvvədə olan normativ aktlara əsasən ən azı aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- *şirkətin tam adı;*
- *müştərinin eyniləşdirilmə məlumatları (fiziki şəxs olduqda - adı, soyadı, atasının adı, fərdi identifikasiya nömrəsi (bu olmadıqda şəxsiyyəti təsdiq edən sənədin növü və nömrəsi), hüquqi şəxs olduqda - hüquqi şəxsin tam adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);*
- *müştərinin depo hesabının nömrəsi;*
- *sifarişin qüvvədə olma müddəti;*
- *qiymətli kağız və ya törəmə maliyyə alətinin növü, forması və dövlət qeydiyyat nömrəsi;*
- *emitentin adı;*

- *sifarişin istiqaməti (alış və ya satış);*
- *qiymətli kağız və ya törəmə maliyyə alətinin sayı;*
- *sifarişin növü (rəqabətli və ya qeyri-rəqabətli);*
- *qiymətli kağızın nominal dəyəri və bazar qiyməti, törəmə maliyyə alətinin bazar qiyməti;*
- *sifarişlərin icra olunması yeri (fond birjası və ya birjadankənar);*
- *valyuta mübadiləsinin məzənnəsi və ya məzənnə dəhlizi (əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı sifarişlərdə).*

**6.** Müştəri sifarişlərinin uçotu Şirkətin daxili uçot sistemində aparılır.

**7.** Müştəri sifarişi aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur və icrası dayandırılır:

- *müştəri tərəfindən ləğv edildikdə;*
- *sifarişdə göstərilmiş icra müddəti başa çatdıqda;*
- *sifarişdə olan mexaniki səhvlər (qiymət, miqdar səhvi, simvol səhvi və s.) nəticəsində sifarişin icrası mümkün olmadıqda.*

**8.** Şirkət qiymətli kağız və ya törəmə maliyyə alətinin qiyməti və sifarişin icra olunması ilə bağlı xərclər də daxil olmaqla ümumi xərclər baxımından müştəri üçün ən yaxşı qiyməti müəyyən edir.

**9.** Müştəri sifarişinin icra olunması ilə bağlı xərclərə aşağıdakılar daxil edilir:

- *sifarişlərin icra olunması yeri üzrə ödənişlər;*
- *kliring haqları;*
- *sifarişin icrasına cəlb edilmiş üçüncü tərəfə ödənişlər.*

**10.** Xidmət üzrə digər şərtlər Müştəri ilə bağlanılmış müqavilə ilə, habelə qanunvericiliklə müəyyən edilir.